**Quliyeva N.N.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2026.82.42-49**
**UOT: 347.78**

## Avropa Ittifaqında müəlliflik hüquqları qanunvericiliyinin transformasiyası: rəqəmsal dövrdə çağırışlar və perspektivlər

**Xülasə:** Avropa İttifaqında müəlliflik hüquqları qanunvericiliyinin transformasiyası rəqəmsal dövrün yaratdığı yeni çağırışların fonunda daha da sürətlənmişdir. Əgər XX əsrdə müəlliflik hüquqları əsasən milli qanunvericiliklər çərçivəsində qorunurdusa, XXI əsrdə vahid bazarın inteqrasiyası və transsərhəd internet xidmətlərinin inkişafı Aİ səviyyəsində harmonizasiya zərurətini doğurmuşdur. 2001-ci il "İnformasiya Cəmiyyətində Müəlliflik Hüquqları Direktivindən" başlayaraq 2019-cu il DSM Direktivinə qədər qəbul edilən normativ aktlar bu transformasiyanın əsas mərhələlərini təşkil edir. DSM Direktivinin 15-ci maddəsi mətbuat nəşriyyatlarının rəqəmsal platformalardan qonorar hüququnu təmin etmiş, 17-ci maddə isə YouTube və Facebook kimi onlayn platformaları istifadəçi kontentinə görə məsuliyyət daşıyan tərəfə çevirmişdir. Bununla yanaşı, Avropa Ədalət Məhkəməsinin qərarları, məsələn, Infopaq və GS Media işləri müəlliflik hüquqlarının rəqəmsal mühitdə təfsirini formalaşdırmışdır. Rəqəmsal hüquq idarəetmə sistemləri (DRM), kollektiv idarəetmə mexanizmləri və anti-piratçılıq strategiyaları müəllif hüquqlarının praktiki qorunmasına xidmət edən əsas vasitələr kimi ön plana çıxmışdır. Eyni zamanda, süni intellekt tərəfindən yaradılan əsərlərin hüquqi statusu, "text and data mining" istisnaları və sərhədsiz rəqəmsal xidmətlərin inkişafı gələcək dövrdə yeni hüquqi problemlər yaradacaq. Tədqiqat göstərir ki, Aİ müəlliflik hüquqlarını yalnız yaradıcılığın qorunması üçün deyil, həm də rəqəmsal iqtisadiyyatın sabitliyi və innovasiyanın təşviqi üçün strateji alət kimi qəbul edir.

**Açar sözlər:** müəlliflik hüquqları, Avropa İttifaqı, DSM Direktiv, rəqəmsal bazar, hüquqi harmonizasiya.

### Giriş

Avropa İttifaqında müəlliflik hüquqları qanunvericiliyinin transformasiyası rəqəmsal texnologiyaların sürətli inkişafı, internet üzərindən əsərlərin kütləvi paylaşılması və qlobal rəqəmsal bazarın genişlənməsi fonunda xüsusi aktuallıq kəsb edir. Rəqəmsal mühitdə müəllif hüquqlarının qorunması yalnız mədəni və yaradıcılıq sektorunun davamlı inkişafı üçün deyil, həm də vahid daxili bazarın iqtisadi sabitliyi, hüquqi bərabərlik və demokratik prinsiplərin təmin olunması baxımından mühüm əhəmiyyətə malikdir. Bu baxımdan, tədqiqatımızın məqsədi Avropa İttifaqının müəlliflik hüquqları qanunvericiliyində rəqəmsal dövrdə baş verən transformasiyaları təhlil edərək çağırışları və gələcək perspektivləri müəyyənləşdirməkdir.

Tədqiqatda normativ hüquqi təhlil, müqayisəli hüquq metodu və institusional yanaşma tətbiq olunur. Normativ hüquqi təhlil vasitəsilə əsas direktivlər (2001/29/EC, 2019/790/EU və s.) və qaydaların məzmunu araşdırılır, müqayisəli hüquq metodu çərçivəsində milli qanunvericiliklər və Aİ səviyyəsində harmonizasiya nümunələri müqayisə edilir, institusional yanaşma isə Avropa

♦ **Quliyeva Nərmin Nicat qızı -** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı (Azərbaycan). E-mail: quliyevanarmin9@gmail.com

Komissiyası, Avropa Ədalət Məhkəməsi və kollektiv hüquq idarəetmə təşkilatlarının rolu və təsir mexanizmlərini üzə çıxarmaq üçün istifadə olunur.

**Müəlliflik hüquqlarının harmonizasiyası və Aİ-nin hüquqi çərçivəsi**

Avropa İttifaqında müəlliflik hüquqlarının hüquqi çərçivəsi vahid daxili bazarın effektiv fəaliyyətini təmin etmək məqsədi ilə mərhələli şəkildə formalaşdırılmışdır. İttifaqın hüquqi əsasları arasında həm ilkin hüquq (müqavilələr), həm də törəmə hüquq (direktivlər, qaydalar) mühüm rol oynayır. Bu sahədə harmonizasiya zərurəti, xüsusilə də transsərhəd internet xidmətlərinin və rəqəmsal bazarın inkişafı fonunda daha da aktuallaşmışdır. Əgər əvvəlki dövrdə müəlliflik hüquqları əsasən milli səviyyədə qorunurdusa, bu gün Avropa İttifaqında onların vahid bazara inteqrasiyası vacib şərt kimi qəbul olunur. İlk mühüm hüquqi aktlardan biri 2001-ci ildə qəbul edilən "İnformasiya cəmiyyətində müəlliflik hüquqları Direktividir" (2001/29/EC). Bu direktiv müəlliflərə və hüquq sahiblərinə rəqəmsal mühitdə öz əsərləri üzərində eksklüziv hüquqlar tanıyır. Burada çoxaldılma (reproduction right), yayımlanma (communication to the public right) və yayılma (distribution right) kimi əsas hüquqlar təsbit edilmişdir. Direktiv həmçinin məhdudiyyət və istisnaları da müəyyənləşdirir; məsələn, təhsil, kitabxana fəaliyyəti və ya şəxsi istifadə məqsədilə müəyyən hallarda müəlliflik hüququndan istisna edilir [6].

Növbəti əhəmiyyətli sənəd 2006-cı il Əlaqəli hüquqlar Direktividir (2006/115/EC). Bu sənəd 1992-ci ilin əvvəlki versiyasını yeniləyərək icarə və borcvermə hüquqları ilə bağlı qaydaları müasirləşdirdi. Burada müəlliflərin, ifaçıların və prodüserlərin əsərlərinin icarəsi və borc verilməsi üzərindəki hüquqları aydın şəkildə tənzimlənmişdir. Bu hüquqi mexanizm, xüsusilə kitabxanaların fəaliyyətində müəlliflərin maraqları ilə ictimaiyyətin informasiya əldə etmək hüququ arasında balans yaratmaq üçün əhəmiyyət kəsb edir [4].

1996-cı il WIPO Müqavilələrinin təsdiqi də Avropa İttifaqının qanunvericiliyində öz əksini tapmışdır. WIPO Müəlliflik Hüquqları Müqaviləsi (WCT) və WIPO İfaçılar və Fonoqram İstehsalçıları Müqaviləsi (WPPT) əsasında qəbul olunan normativ aktlar rəqəmsal mühitdə müəllif hüquqlarının qorunmasına beynəlxalq standart gətirdi. Avropa İttifaqı bu müqavilələri hüquqi sisteminə inteqrasiya edərək beynəlxalq səviyyədə öz qanunvericiliyini uyğunlaşdırmışdır.

2012-ci il "Yetim" Əsərlər (ing. *orphan works*) Direktivinə (2012/28/EU) görə, kitabxana, muzey və arxivlərdə olan, lakin hüquq sahibi müəyyən edilməyən əsərlərin istifadəsi tənzimlənmişdir. Bu, həm mədəni irsin qorunması, həm də rəqəmsallaşdırma proseslərində hüquqi boşluqların aradan qaldırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Direktiv hüquq sahiblərinin axtarışı üçün "diligent search" (səmərəli axtarış) prosedurunu müəyyən etmişdir [5].

2017-ci ildə qəbul edilən Portability Regulation (2017/1128/EU) isə müəlliflik hüquqları ilə bağlı yeni bir istiqamət açdı. Bu qayda Avropa İttifaqı daxilində istifadəçilərin ödənişli onlayn məzmun xidmətlərindən (məsələn, Netflix, Spotify) sərhədlərarası istifadəsinə imkan verir. Beləliklə, müəlliflik hüquqları çərçivəsində daxili bazarın vahidliyinə töhfə verilmişdir [8]. Ən müasir və mübahisəli aktlardan biri 2019-cu il DSM Direktividir (Directive on Copyright in the Digital Single Market, 2019/790/EU). Bu sənəd rəqəmsal dövrdə müəlliflik hüquqlarının yenilənməsi məqsədilə qəbul edilmişdir. Direktivin 15-ci maddəsi mətbuat nəşriyyatlarına rəqəmsal platformalardan istifadə ilə bağlı yeni qonorar hüquqları tanıyır. Ən çox müzakirə doğuran isə 17-ci maddədir: bu maddəyə görə, YouTube və Facebook kimi platformalar istifadəçilərin yüklədiyi müəllif hüquqları ilə qorunan materiallara görə məsuliyyət daşıyır və hüquq sahibləri ilə lisenziya müqavilələri bağlamalıdır [3].

Avropa Ədalət Məhkəməsinin (CJEU) qərarları da müəlliflik hüquqlarının təfsirində mühüm rol oynayır. Məsələn, Infopaq International A/S v. Danske Dagblades Forening (C-5/08) işində məhkəmə bildirdi ki, hətta çox qısa fraqmentlər də müəlliflik hüquqları ilə qoruna bilər. Bu qərar müəllif hüquqlarının sərhədlərini genişləndirərək hüquqi praktikanın formalaşmasına səbəb olmuşdur. Eyni zamanda, Svensson v. Retriever Sverige AB (C-466/12) işində məhkəmə hiper-linklərin müəlliflik hüquqlarını pozub-pozmadığı məsələsini izah etmişdir. Qərara əsasən, əgər hiperlink ictimaiyyət üçün artıq açıq olan materiallara yönəlirsə, bu müəlliflik hüquqlarını pozmur [1].

Nəhayət, Avropa İttifaqının müəlliflik hüquqları sahəsində hüquqi çərçivəsi daim dinamikdir. Rəqəmsal transformasiya, süni intellekt tərəfindən yaradılan məzmun, həmçinin sərhədlərarası yayımlar yeni çağırışlar ortaya çıxarır. Hal-hazırda Avropa Komissiyası süni intellektin yaratdığı əsərlərin müəlliflik hüquqları statusunu, eyni zamanda "text and data mining" (mətn və məlumatın avtomatik emalı) məsələlərini hüquqi müstəviyə gətirmək üzərində işləyir. Bu, yaxın illərdə Aİ müəlliflik hüquqları sisteminin daha da dərinləşəcəyini göstərir.

**Rəqəmsal bazarda müəllif hüquqlarının qorunması və tətbiq mexanizmləri**

Rəqəmsal bazarda müəlliflik hüquqlarının qorunması Avropa İttifaqının əsas prioritetlərindən biridir, çünki onlayn platformalar müəllif hüquqları ilə qorunan əsərlərin yayılmasını sürətləndirmişdir. Burada ən mühüm mexanizm 2019-cu il DSM Direktivinin 17-ci maddəsidir. Bu maddəyə görə, YouTube və Facebook kimi "hosting service provider"-lər istifadəçilərin paylaşdığı kontentdə müəlliflik hüquqlarının pozulmasına görə birbaşa məsuliyyət daşıyır. Əvvəllər məsuliyyət yalnız istifadəçiyə aid idisə, indi platformaların üzərinə hüquq sahibləri ilə lisenziya müqavilələri bağlamaq və hüquqsuz məzmunu bloklamaq öhdəliyi qoyulub. Bu mexanizmin tətbiqi üçün texnoloji həllər də nəzərdə tutulmuşdur. Məsələn, YouTube-un "Content ID" sistemi müəllif-lik hüquqları ilə qorunan musiqi və videoları avtomatik tanıyır, ya onların yayımlanmasını bloklayır, ya da reklam gəlirlərini hüquq sahibinə yönləndirir. Bu texnologiya DSM Direktivinin praktiki tətbiqinə uyğun nümunə kimi göstərilir. Lakin tənqidçilər qeyd edir ki, belə alqoritmik sis-temlər bəzən qanuni istisna hallarını, məsələn, "fair use" və ya parodiyanı səhvən bloklayır.

Rəqəmsal bazarda müəllif hüquqlarının qorunmasının digər hüquqi mexanizmi qorunan məzmunun onlayn yayımı üçün qonorar hüququnun tanınmasıdır. DSM Direktivinin 15-ci maddəsi mətbuat nəşriyyatlarına Google News kimi xəbər aqreqatorlarından gəlir əldə etmək imkanı verir. Məsələn, Fransa və Avstriyada mətbuat qurumları Google ilə qonorar müqavilələri bağlamış, bu da hüquqi mexanizmin praktik nəticələrindən biri olmuşdur. Bu qayda müəllif hüquqlarının kom-mersiya dəyərinin rəqəmsal bazarda tanınmasını təmin edir [7]. Avropa Ədalət Məhkəməsinin qərarları da rəqəmsal bazarda tətbiq mexanizmlərinin formalaşmasına mühüm təsir göstərmişdir. GS Media v. Sanoma (C-160/15) işində məhkəmə qərara aldı ki, əgər link verən şəxs məzmunun qanunsuz yükləndiyini bilirdisə və ya bilməli idisə, bu, müəlliflik hüquqlarının pozulmasıdır. Bu qərar hiperlinklərin istifadəsinə hüquqi məsuliyyət çərçivəsi gətirdi və rəqəmsal yayımda yeni tətbiq mexanizmi yaratdı [2].

Bundan əlavə, rəqəmsal hüquq idarəetmə sistemləri (DRM – Digital Rights Management) müəllif hüquqlarının qorunmasının texnoloji vasitəsidir. Məsələn, e-kitab platformaları (Amazon Kindle) və musiqi xidmətləri (Apple Music) DRM mexanizmləri ilə kontentin çoxaldılmasına və qeyri-qanuni paylaşılmasına qarşı texniki maneə yaradır. Bu, hüquqi öhdəlikləri texnoloji səviyyədə təmin edən mexanizm kimi çıxış edir. Tətbiq mexanizmlərinin mühüm istiqamətlərindən biri də

lisenziyalaşdırma bazalarının yaradılmasıdır. Avropa İttifaqında "Orphan Works Database" və "EUIPO Licensing Hub" kimi platformalar hüquq sahiblərini və istifadəçiləri bir araya gətirərək qanuni istifadənin qarşısındakı maneələri azaldır. Bu sistemlər həm hüquqi mübahisələrin qarşısını alır, həm də müəlliflik hüquqlarının rəqəmsal bazarda effektiv tətbiqinə xidmət edir.

Müəllif hüquqlarının qorunması sahəsində xüsusi diqqət piratçılıqla mübarizə mexanizmlərinə yönəldilmişdir. Avropa Komissiyasının "Follow the Money" strategiyası pirat vebsaytların reklam və ödəmə kanallarının qarşısını almağı nəzərdə tutur. Məsələn, 2021-ci ildə "EuroDNS" və "Visa" ilə əməkdaşlıq nəticəsində bir sıra pirat film saytlarının maliyyə dəstəyi kəsilmişdir. Bu yanaşma məhkəmə qərarları ilə yanaşı iqtisadi təzyiq mexanizmi yaradır. Eyni zamanda, *geoblocking* məhdudiyyətlərinin aradan qaldırılması da müəlliflik hüquqlarının rəqəmsal bazarda tətbiqi üçün hüquqi addım sayılır. 2018-ci il Geo-Blocking Regulation (2018/302/EU) müəyyən kateqoriyalar üzrə sərhədlərarası onlayn xidmətlərə çıxışın qarşısını alan məhdudiyyətləri qadağan etmişdir. Bu qayda həm daxili bazarın vahidliyini möhkəmləndirir, həm də müəllif hüquqları ilə qorunan kontentin qanuni istifadəsini stimullaşdırır [9].

Tətbiq mexanizmlərinin başqa bir istiqaməti də məcburi kollektiv idarəetmə sistemidir. Musiqi əsərlərinin yayımlanmasında Avropa İttifaqı çox vaxt kollektiv hüquq idarəetmə təşkilatlarının (məsələn, GEMA, SACEM) üzərinə nəzarət mexanizmi qoyur. Bu təşkilatlar müəlliflər adından lisenziya müqavilələri bağlayır və qonorarların toplanmasını təmin edir. Belə mexanizm müəlliflərin ayrı-ayrı hallarda hüquqlarını müdafiə etməsini asanlaşdırır. Nəhayət, rəqəmsal bazarda müəlliflik hüquqlarının qorunması yalnız hüquqi qaydalarla deyil, həm də tətbiq orqanlarının institusional gücü ilə təmin edilir. Avropa İttifaqı Sənaye Mülkiyyəti İdarəsi (EUIPO) onlayn pozuntularla bağlı monitorinq aparır, "IP Enforcement Portal" vasitəsilə hüquq sahiblərinə və milli orqanlara məlumat mübadiləsi imkanı yaradır. Bu sistem, məsələn, saxta məhsulların Amazon və eBay kimi platformalarda aşkarlanmasına xidmət edir.

**Nəticə**

Nəticə etibarilə, Avropa İttifaqında müəlliflik hüquqlarının harmonizasiyası vahid daxili bazarın dərinləşməsi və rəqəmsal iqtisadiyyatın inkişafı üçün əsas şərtlərdən biri olmuşdur. İlk mərhələdə qəbul edilən 2001/29/EC Direktivindən başlayaraq DSM Direktivinə qədərki proses göstərir ki, Aİ müəlliflik hüquqlarını yalnız milli qanunvericiliklərin uyğunlaşdırılması ilə məhdudlaşdırmayıb, həm də rəqəmsal çağırışlara cavab verən dinamik hüquqi baza formalaşdırıb. Burada hüquqların vahid interpretasiyası, istisnaların müəyyənləşdirilməsi və beynəlxalq müqavilələrlə uyğunlaşdırma Avropa məkanında müəlliflik hüquqlarının daha proqnozlaşdırılan və sabit çərçivədə tətbiqini təmin etmişdir. Bu, həm hüquq sahibləri üçün iqtisadi stimullar yaratmış, həm də istifadəçilərin informasiya əldə etmək imkanlarını qorumaq məqsədini güdmüşdür.

Rəqəmsal bazarda müəllif hüquqlarının qorunması və tətbiqi isə daha çox texnoloji və institusional mexanizmlərin birləşməsi ilə həyata keçirilmişdir. DSM Direktivinin 15-ci və 17-ci maddələri platformaların məsuliyyətini artırmaqla yanaşı, müəlliflər üçün yeni gəlir mənbələri açmışdır. Lakin praktiki mübahisələr göstərir ki, bu mexanizmlər bəzən balanssız nəticələr doğurur: alqoritmik filtrasiya qanuni istisnaları bloklaya, xəbər aqreqatorlarına qarşı qonorar mexanizmi isə bazarda güc balansını dəyişdirə bilər. Bununla belə, CJEU-nun qərarları, DRM texnologiyaları, kollektiv idarəetmə sistemi və anti-piratçılıq mexanizmləri müəlliflik hüquqlarının rəqəmsal bazarda real qorunmasını təmin edən çoxpilləli yanaşmanın formalaşdığını təsdiqləyir.

Ümumilikdə, Aİ-nin təcrübəsi göstərir ki, müəlliflik hüquqlarının harmonizasiyası və onların rəqəmsal bazarda qorunması sadəcə hüquqi tədbirlərlə məhdudlaşmır, iqtisadi, texnoloji və institusional elementlərin qarşılıqlı təsiri ilə mümkün olur. Bu sistem həm daxili bazarın inteqrasiyasına xidmət edir, həm də qlobal rəqəmsal mühitdə Avropanın rəqabət qabiliyyətini gücləndirir. Qarşıdakı illərdə süni intellektin yaratdığı əsərlərin hüquqi statusu, "*text and data mining*" istisnaları və sərhədsiz rəqəmsal xidmətlər müəlliflik hüquqlarının qorunmasında yeni çağırışlar doğuracaq. Aİ-nin dinamik hüquqi yanaşması göstərir ki, ittifaq müəlliflik hüquqlarını yalnız mədəni və yaradıcı dəyərin qorunması üçün deyil, həm də rəqəmsal iqtisadiyyatın dayanıqlığı və innovasiyanın təşviqi üçün strateji alət kimi qəbul edir.

**Biblioqrafiya**

1. Court of Justice of the European Union. (2014, February 13). Nils Svensson and Others v. Retriever Sverige AB, Case C-466/12 (ECLI:EU:C:2014:76). [Elektron resurs]. URL: https://eur-lex.europa.eu/legal-content/EN/ALL/?uri=CELEX:62012CJ0466

2. Court of Justice of the European Union. (2016, September 8). GS Media BV v. Sanoma Media Netherlands BV & Others, Case C-160/15 (ECLI:EU:C:2016:644). [Elektron resurs]. URL: https://curia.europa.eu/juris/document/document.jsf?docid=183124&doclang=EN

3. Directive (EU) 2019/790 of the European Parliament and of the Council of 17 April 2019 on copyright and related rights in the Digital Single Market and amending Directives 96/9/EC and 2001/29/EC. EUR-Lex. [Elektron resurs]. URL: https://eur-lex.europa.eu/eli/dir/2019/790/oj/eng

4. Directive 2006/115/EC of the European Parliament and of the Council of 12 December 2006 on rental right and lending right and on certain rights related to copyright in the field of intellectual property. EUR-Lex. [Elektron resurs]. URL: https://eur-lex.europa.eu/eli/dir/2006/115/oj/eng

5. Directive 2012/28/EU of the European Parliament and of the Council of 25 October 2012 on certain permitted uses of orphan works Text with EEA relevance. EUR-Lex. [Elektron resurs]. URL: https://eur-lex.europa.eu/eli/dir/2012/28/oj/eng

6. Institute for Information Law. Study on the implementation and effect in Member States' laws of Directive 2001/29/EC on the harmonisation of certain aspects of copyright and related rights in the information society: Final report. Amsterdam: University of Amsterdam, 2007. 213 p.

7. Lombardi, C. Rethinking journalism protection: looking beyond copyright. Journal of Media Law, 2023, 15(1), 90-120.

8. Regulation (EU) 2017/1128 of the European Parliament and of the Council of 14 June 2017 on cross-border portability of online content services in the internal market (Text with EEA relevance). EUR-Lex. [Elektron resurs]. URL: https://eur-lex.europa.eu/eli/reg/2017/1128/oj/eng

9. Regulation (EU) 2018/302 of the European Parliament and of the Council of 28 February 2018 on addressing unjustified geo-blocking and other forms of discrimination based on customers' nationality, place of residence or place of establishment within the internal market and amending Regulations (EC) No 2006/2004 and (EU) 2017/2394 and Directive 2009/22/EC. [Elektron resurs]. URL: https://eur-lex.europa.eu/eli/reg/2018/302/oj/eng

***Məqalə daxil olmuşdur:*** *09 mart 2026-cı il*
***Çapa qəbul edilmişdir:*** *19 mart 2026-cı il*

Guliyeva N.N.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2026.82.42-49
UDC: 347.78

## Transformation of copyright legislation in the European Union: challenges and prospects in the digital age

**Abstract:** The transformation of copyright legislation in the European Union has accelerated in response to the new challenges of the digital age. While in the 20th century copyright was mainly protected under national legislation, in the 21st century the integration of the single market and the expansion of cross-border internet services have necessitated harmonization at the EU level. From the 2001 "Copyright in the Information Society Directive" to the 2019 DSM Directive, key legal acts have marked the stages of this transformation. Article 15 of the DSM Directive granted press publishers the right to remuneration from digital platforms, while Article 17 made online platforms such as YouTube and Facebook directly responsible for user-generated content. Furthermore, decisions of the Court of Justice of the European Union, such as Infopaq and GS Media, have shaped the interpretation of copyright in the digital environment. Digital Rights Management (DRM) systems, collective management mechanisms, and anti-piracy strategies have become central instruments for the practical enforcement of copyright. At the same time, the legal status of works created by artificial intelligence, exceptions for text and data mining, and the expansion of borderless digital services will present new legal challenges in the future. The study demonstrates that the EU regards copyright not only as a tool for protecting creativity but also as a strategic instrument for ensuring the stability of the digital economy and fostering innovation.

**Keywords:** copyright, European Union, DSM Directive, digital market, legal harmonization.

### References

1. Court of Justice of the European Union. (2014, February 13). Nils Svensson and Others v. Retriever Sverige AB, Case C-466/12 (ECLI:EU:C:2014:76). Available at: https://eur-lex.europa.eu/legal-content/EN/ALL/?uri=CELEX:62012CJ0466
2. Court of Justice of the European Union. (2016, September 8). GS Media BV v. Sanoma Media Netherlands BV & Others, Case C-160/15 (ECLI:EU:C:2016:644). Available at: https://curia.europa.eu/juris/document/document.jsf?docid=183124&doclang=EN
3. Directive (EU) 2019/790 of the European Parliament and of the Council of 17 April 2019 on copyright and related rights in the Digital Single Market and amending Directives 96/9/EC and 2001/29/EC. EUR-Lex. Available at: https://eur-lex.europa.eu/eli/dir/2019/790/oj/eng
4. Directive 2006/115/EC of the European Parliament and of the Council of 12 December 2006 on rental right and lending right and on certain rights related to copyright in the field of intellectual property. EUR-Lex. Available at: https://eur-lex.europa.eu/eli/dir/2006/115/oj/eng

♦ **Guliyeva Narmin Nicat** – Master's student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan (Azerbaijan). E-mail: guliyevanarmin9@gmail.com

5. Directive 2012/28/EU of the European Parliament and of the Council of 25 October 2012 on certain permitted uses of orphan works Text with EEA relevance. EUR-Lex. Available at: https://eur-lex.europa.eu/eli/dir/2012/28/oj/eng

6. Institute for Information Law. Study on the implementation and effect in Member States' laws of Directive 2001/29/EC on the harmonisation of certain aspects of copyright and related rights in the information society: Final report. Amsterdam: University of Amsterdam, 2007. 213 p.

7. Lombardi, C. Rethinking journalism protection: looking beyond copyright. Journal of Media Law, 2023, 15(1), 90-120.

8. Regulation (EU) 2017/1128 of the European Parliament and of the Council of 14 June 2017 on cross-border portability of online content services in the internal market (Text with EEA relevance). EUR-Lex. Available at: https://eur-lex.europa.eu/eli/reg/2017/1128/oj/eng

9. Regulation (EU) 2018/302 of the European Parliament and of the Council of 28 February 2018 on addressing unjustified geo-blocking and other forms of discrimination based on customers' nationality, place of residence or place of establishment within the internal market and amending Regulations (EC) No 2006/2004 and (EU) 2017/2394 and Directive 2009/22/EC. Available at: https://eur-lex.europa.eu/eli/reg/2018/302/oj/eng

***The article was submitted:*** *2026 March 09*
***Accepted for publication:*** *2026 March 19*

**Гулиева Н.Н.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2026.82.42-49**
**УДК: 347.78**

## Трансформация законодательства об авторском праве в Европейском Союзе: вызовы и перспективы в цифровую эпоху

**Аннотация:** Трансформация законодательства об авторском праве в Европейском Союзе значительно ускорилась на фоне новых вызовов цифровой эпохи. Если в XX веке авторские права в основном защищались в рамках национального законодательства, то в XXI веке интеграция единого рынка и развитие трансграничных интернет-услуг обусловили необходимость гармонизации на уровне ЕС. От Директивы 2001 года «Об авторском праве в информационном обществе» до Директивы DSM 2019 года были приняты ключевые нормативные акты, определившие этапы этой трансформации. Статья 15 DSM Директивы закрепила право издательств получать вознаграждение от цифровых платформ, а статья 17 возложила ответственность за пользовательский контент на онлайн-платформы, такие как YouTube и Facebook. Кроме того, решения Суда ЕС, например по делам Infopaq и GS Media, сформировали практику толкования авторских прав в цифровой среде. Системы управления цифровыми правами (DRM), механизмы коллективного управления и стратегии борьбы с пиратством стали ключевыми инструментами практической защиты авторских прав. Вместе с тем, пра-

♦ **Гулиева Нармин Ниджат кызы** - магистрантка Академии государственного управления при Президенте Азербайджанской Республики (Азербайджан). E-mail: guliyevanarmin9@gmail.com

вовой статус произведений, созданных искусственным интеллектом, исключения для «text and data mining» и развитие трансграничных цифровых сервисов в будущем породят новые юридические проблемы. Исследование показывает, что ЕС рассматривает авторское право не только как инструмент защиты творчества, но и как стратегический рычаг обеспечения стабильности цифровой экономики и стимулирования инноваций.

**Ключевые слова:** авторское право, Европейский Союз, DSM Директива, цифровой рынок, правовая гармонизация.

***Дата поступления:*** *09 марта 2026 г.*
***Дата принятия в печать:*** *19 марта 2026 г.*